Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Opera səhnəsinin batmayan günəşi

**Azərbaycanda professional vokal sənətinin banisi, SSRİ xalq artisti Bülbülün 120 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları, musiqi məktəbləri üçün hazırlanmış metodik vəsait**

**Bakı-2017**

**Tərtibçilər:** **Nərgiz Məcidova**

**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Opera səhnəsinin batmayan günəşi:** metodik vəsait / tərt.ed.: N. Məcidova ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı, 2017.-23s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Böyüməkdə olan gənc nəslin bədii zövqünün formalaşdırılması bu gün xüsusi aktuallıq kəsb edən vəzifələrdən biridir. Məlumdur ki, bədii zövqə malik olmayan insanı hərtərəfli inkişaf etmiş insan hesab etmək olmaz. Mənəviyyatı zəngin, mədəni səviyyəsi və bədii zövqü yüksək olan varlığın estetik keyfiyyətlərini – musiqini, sənət əsərlərini həssaslıqla qavrayıb özündə gözəl bədii zövq tərbiyə etməyi bacaran şəxsiyyətlər yetişdirilməsi işi məktəbəqədər tərbiyə müəssisələrindən, kitabxanalardan başlayır. Bu mənada məktəbəqədər müəssisələr, kitabxanalar gələcəkdə şəxsiyyət olaraq uşaqların musiqi zövqünün formalaşması üçün səmərəli işini qurmalıdır. Kitabxanalar da uşaqlar üçün təlim və tərbiyə sahəsi olduğundan nəzərdə tutulmuş müsbət keyfiyyətlərin aşılanması üçün burda müxtəlif tədbirlər həyata keçirilir. Bunlardan ədəbi-bədii gecələr, müxtəlif tipli sərgilər, kitab müzakirələri, icmallar və s. nümunə göstərmək olar. Musiqi sahəsində olan tədbirlər də kitabxanada əhəmiyyətli tədbirlərdəndir. Çünki incəsənətin başqa növü kimi musiqi də uşaqlara ətraf aləmi göstərir. Lakin öz musiqi dili ilə. Məktəbəqədər yaşlı uşaqlar  və yuxarı sinif şagirdləri gerçəkliyin musiqi əsərlərində düzgün əks olunduğunu eşitdikdə, duyduqda onların musiqi zövqü də yüksəlir, bədii zövqü də formalaşır. Bu məqsədlə kitabxanamızda keçirilən müxtəlif bəstəkar, müğənnilərin yaradıcılığı, musiqi günlərinə həsr edilmiş tədbirlər, zövqlü musiqinin təbliği üçün nəzərdə tutulur. Belə tədbirlərə 18 sentyabr – Milli Musiqi günü ilə bağlı, bəstəkar Fikrət Əmirovun yaradıcılığı ilə bağlı hazırlanmış metodik vəsaitlər və keçirilmiş tədbirləri nümunə göstərmək olar. Bu vəsait də Azərbaycan vokal sənətinin banisi, dahi müğənnimiz Bülbül haqqında hazırlanmışdır.

# Dünyanın “Bülbülü”

Bülbül – Murtuza Məşədi Rza oğlu 1897-ci ildə Qarabağın gözəllik tacı olan Şuşada anadan olmuşdur. Şuşa həmin illərdə musiqi mədəniyyətimizin beşiyi sayıldığından Bülbülə bu xanəndələrin zəngin təcrübəsi təsir etmişdir. O lap uşaqlıqdan bülbülü, çoban tütəyi ilə o qədər gözəl yamsılayırmış ki, elə o vaxtdan el arasında Bülbül kimi şöhrət tapmışdır. 1914-cü ildə Bülbül Gəncəyə köçür və Gəncə həyatı onun müğənnilik həyatında böyük rol oynayır. O, ilk dəfə Gəncədə böyük sənətkar Cəmil Əmirovun “Seyfəlmülk ” adlı opera tamaşasında çıxış edir. İlk səhnə uğuru onun qəlbində “Leyli və Məcnun”, “Koroğlu”, “Əsli və Kərəm” operalarında iştirak etmək istəyi yaradır. Mükəmməl vokal təhsili olmadığından vokal təhsili almağın vacibliyini dərk edib, 1921-ci ildə Bakı Konservatoriyasında təhsil almaq qərarına gəlir. Uğurları ilə kifayətlənməyən Bülbül 1924-cü ildə İtaliyaya gedir, orada dünya şöhrətli musiqi ocağı La Skala teatrında təcrübə keçir. Qayıdandan sonra yenidən 1925-ci ildə Konservatoriyada Üzeyir Hacıbəyov sinfində təhsilini davam etdirir. 1927-ci ildə təhsilini bitirir, yenidən musiqi təcrübəsini təkmilləşdirmək məqsədi ilə hökumətə müraciət edir ki, onu İtalyaya ezam etsin. Milanda Bülbül İtalyanın ecazkar musiqi həyatı ilə tanış olur. Bülbül Avropa vokal üslubunu öyrənsə də, Azərbaycan xalqının mentalitetinə, duyumuna uyğun musiqiləri daha gözəl ifa edirdi. O başa düşürdü ki, Azərbaycanda yetərincə muğam ifaçıları var, Azərbaycan musiqisini dünya mədəniyyətinə qovuşdurmaq üçün ariyalar, romanslar ifa etmək lazımdır. Öz üslubunda oxuduğu operaları, ariyaları ilə Bülbülün səsi Azərbaycan xalqının nəğməli ruhunun ifadəsi olduğundan, xalqın öz sevimli sənətkarına olan sevgisi tükənməzdir.

## Keçiriləcək tədbirlər

Azərbaycanda vokal sənətinin banisi Bülbülün 120 illik yubileyi bu il respublika səviyyəsində qeyd olunur. Görkəmli sənətçinin yubileyi münasibətilə respublikamızın bir çox musiqi məktəblərində, incəsənət ocaqlarında, kitabxanalarda və s. yerlərdə yubileylə bağlı tədbirlər həyata keçiriləcəkdir. Bu tədbirlərdən bir neçəsinin F.Köçərli adına Uşaq Kitabxanasında keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanada Bülbülün yaradıcılığı ilə əlaqədar yubiley həftəsi keçiririlir. Həftə ərzində aşağdakı tədbirlər hazırlanır. Tədbirlərdən sərgi, Bülbülün yaradıcılığına həsr edilmiş şeirlərdən ibarət şeir müsabiqəsi, rəsm müsabiqəsi, kitab müzakirəsi, ədəbi-bədii gecə, Bülbülün Memorial ev muzeyinə ekskursiya və s. nəzərdə tutulmuşdur. Kitabxanaya girişdə monitorda Bülbülün şəkillərindən, həyat və yaradıcılığı haqqında məlumatlardan hazırlanmış slayd həftə ərzində nümayiş edilir.

Sərgi müxtəlif başlıqlar altında verilir. Məsələn: *"Özü Bülbül, sözü Bülbül", "Sənət gülüstanının Bülbülü", "Xoşbəxt sənətkar", "Böyük nəğməkar ","Ecazkar səs" və s.*
*"Böyük nəğməkar – 120"* adlı sərginin nümunəsini veririk:
Başlıq:

1. "Bülbül – 120"
2. Kitablarının nümayişi.
3. Görkəmli insanların sənətkar haqqında söylədikləri.
4. Dövri mətbuatda nəşr olunan məqalələrin kartotekası.
5. Sitat: "Öz dilində elə oxumalı ki, o dili başa düşməyənlər belə ləzzət alsınlar".


BİZİM BÜLBÜL –
DÜNYANIN BÜLBÜLÜ


Azərbaycan
musiqi
dünyası
Azerbaijan
music
world


İRADƏ AĞA-ƏLİ QIZI
AZƏRBAYCAN
MUSİQİSİ—ZÖVQ
MƏNBƏYİDİR


The Collection of
Azerbayjan Music
برگزیده‌های
بلبل
Bül Bül
Selection
PM

**Görkəmli şəxsiyyətlərin Bülbül haqqında söylədikləri fikirlər:**

Sovet opera sənətinin görkəmli nümayəndəsi, professor, SSRİ xalq artisti Bülbülün ev muzeyinə böyük maraqla baxdım.

Muzey Bülbülün yaradıcılıq yolunu çox parlaq surətdə əks etdirir və şübhəsiz ki, indiki, həmçinin gələcək nəsilləri bu böyük sənətkarın yaradıcılığı ilə tanış edəcəkdir.

**Zərifə Əliyeva,**
*Akademik*

Bülbül sözün əsl mənasında böyük və ölməzdir. Xalq onun işıqlı surətini ürəyində qranit abidə kimi qoruyur.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı, akademik*

Bülbülün xalq tərəfindən böyük maraq və ürək döyüntüsü ilə dinlənməsi, çətin və gərgin əməyin səmərəli nəticəsidir.

**Niyazi,**
*SSRİ xalq artisti*

O, böyüməkdə olan gələcək nəsillərə böyük fayda verə biləcək materialları fədakarlıqla, məhəbbətlə qoruyub saxlamışdır.

**Firəngiz Əhmədova,**
*SSRİ Xalq artisti*

Sənin səsin, sevimli qardaşım, bütün ömrün boyunca insanları gözəlliyə, həqiqətə, haqqa ümidə çağırdı. Mən sənə dilə gətirdiyin Koroğlu üçün ölümsüz gənclik diləyirəm.

Xalqımız yaşadıqca bülbülləri mat qoyan ilə həmişə oxuyacaqdır.

**Əlibala Hacızadə,**
*Yazıçı*

## Rəsm sərgisi

Kitabxanada oxucularla işin təşkilində tədbirlərin keçirilməsində rəsm sərgilərinin də öz əhəmiyyəti var. Göz yaddaşına əsaslanan rəsm sərgiləri oxucu yaddaşında daha yaxşı qalır. Yubilyar haqqında oxucunu daha dolğun məlumatlandırır. Bülbülün 120 illik yubiley tədbirində milli muğamımızı – *"Azərbaycan muğamları bir arada"* başlığı ilə uşaqlara tanıda bilərik. Sərgidə çəkilmiş rəsmlər uşaqların muğamlarımız haqqında dinlədikdən sonra düşündüklərindən ibarət olacaq. Rəsm çəkmək bacarığı olan uşaqlar dinlənmiş musiqidən sonra çəkdikləri rəsmlər sərgilənir. Həmçinin şair Səməd Vurğunun aşağıdakı fikrindən istifadə edə bilərik:

"*Azərbaycan musiqisi muğamat üzərində qurulmuşdur. Eyni zamanda bu yalnız Azərbaycan zövqü deyil, bütün Qafqaz və Şərq xalqlarının bədii zövqüdür. Fəxr edirik ki, yaratdığımız böyük musiqi məktəbi, nəinki Azərbaycanda həm də Azərbaycandan xaricdə bir çox xalqlara möhkəm təsir göstərməkdədir*".

Bəstəkar, vokalist Bülbülün yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də ***"Sənət gülüstanının Bülbülü"*** adlı xatirə gecəsidir. Əvvəlcə kitabxanaçı uşaqlara Bülbülün yaradıcılığı haqqında məlumat verir, Bülbülün ev muzeyi ilə qiyabi də olsa tanış edir. Daha sonra muzeyin görüntülərinə proyektorda baxa bilərik. Sənətkarı tanıtmaq üçün kitabxanada onun həyat və yaradıcılığından toplanmış materiallardan bukletlər hazırlanması nəzərdə tutulmuşdur. Uşaqlara Bülbülün həyat və

yaradıcılığı haqqında dolğun məlumat verdikdən sonra kitabxanaçı Bülbül haqqında yazılmış xatirələrdən Mehdi Məmmədovun “*Xoşbəxt sənətkar*” adlı xatirəsini oxuyur.

**Xoşbəxt sənətkar**

Xalqın məhəbbəti sənətkar üçün ən yüksək mükafatlardandır. Bu məhəbbətin, bütün varlığı ilə öz elinə, vətəninə bağlanmış, xalqın yaradıcılıq dühasından öyrənmiş və kamala yetmiş sənətkarlar qazanır.

Xalqın məhəbbətini qazanan sənətkarlar xoşbəxtdirlər. SSRİ xalq artisti Bülbül belə sənətkarlardandır.

**Kitabxanaçı:** Sizin aranızda musiqiçi olmaq istəyən varmı?

*(Kitabxanaçı oxumağa davam edir.)*

Xanəndəlik həvəsi Bülbüldə kiçik yaşlarından oyanmışdır. Xalq musiqisi, el havaları Bülbül üçün əsl məktəb olmuşdur. Bir çox məşhur vokalçılar kimi Bülbülün də yaradıcılığı mahnıdan doğmuş və mahnılarla tərbiyələnmişdir. Onun ifaçılıq xüsusiyyətini xarakterizə edən səmimiyyət, hərarət sadəlik, məhz bu mənbədən alınmış keyfiyyətlərdəndir. O, “ürəkdən oxumaq” dərsini hələ uşaq yaşlarında xalqdan almışdır. Bülbülün bir xanəndə olaraq boy atmasında, ifaçı kimi inkişafında Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski kimi məşhur sənətkarların böyük təsiri olmuşdur. Bülbülün fitri istedadı nadirdir. Onun çox məlahətli və güclü səsi, yaxşı musiqi hafizəsi vardır. Bu istedadına görə də onu uşaqlıqdan Bülbül adlandırmışlar. Bülbülün oynadığı Koroğlu operasının ilk tamaşasından illər keçsə də, bu gözəl əsər öz gözəlliyini hələ də itirməmişdir.

Koroğlu rolu məhz Bülbülün ifasında öz ləyaqətli ifaçısını tapmışdır. O, Koroğlu operasının ilk və gözəl ifaçısıdır. Bülbülün ifasında Koroğlu həm mətin bir qəhrəman, həm də

sadiq bir aşiq kimi canlanır. Koroğlunun birinci keyfiyyəti üçün operanın ilk pərdəsindəki üsyana çağırış səhnəsi, Çənlibeldəki "Mərd igidlər nərə çəksin davada" monoloqu səciyyəvidirsə, ikinci keyfiyyəti üçünsə "Sevdim səni mən..." ariyası səciyyəvidir.

## Şeir müsabiqəsi

Şeir müsabiqələrinin də təşkili kitabxanada təbliğat işində ən münasib işlərdəndir. Bu müsabiqənin təşkilində kitabxanaçı ilk növbədə şeirləri seçir və ətraf məktəblərə paylanır. Uşaqlar şeirləri əzbərləyib müsabiqə keçirilən günü kitabxanaya gəlirlər. Bülbülün yubileyi ilə əlaqədar təşkil edilmiş bu müsabiqədə münsiflər daha gözəl şeir ifaçılarını mükafatlandırır. Uşaqlara paylamaq üçün bu şeirlərdən aşağıdakıları təqdim edirik:

### Şuşa Bülbülü

Səhnədə oxurkən Şuşa Bülbülü,
Qızardı fərəhdən gülşəndə gülü.
Öyrənir nəğməni ondan bülbüllər,
Oxucaq nəğməsin açılır güllər,
Adı da Bülbüldür, özü də bülbül.
O, yeni nəğmələr yaradır hər il.
Sənətkar sənətin ürəkdən sevir,
Səhnədə xalqına nəşələr verir.

**Mirzə Xosrov Axundov (Şaiq)**

### Dostum Bülbülə

Sən ellərin sevgisilə bəzəmisən ömrünü,
Balam deyib əziz tutur ana vətən ömrünü.
Başın daşdan-daşa dəyib yeni sənət yolunda
Döyüşmüsən əsgər kimi bu həqiqət yolunda,

Minbir ətir toplamısan minbir canlı çiçəkdən,
Alqış yağmış ünvanına milyon-milyon ürəkdən,
Sən ötdükcə vətənini ürəyinin gözüylə,
Ucaltmışdır xalqın səni qanadında özüylə.
Alnı açıq  nəğməkarı sayılırsan ölkənin...

**Süleyman Rüstəm,**
*Xalq şairi*

**Eşit həqiqətin incə səsini**

...Bu günün eşqinə mahnılar deyək.
Desin Koroğludan bir ağız aşıq,
Nə lazım dünyada sözsüz yaraşıq?
Eşit həqiqətin incə səsini,
Bülbülün “Qarabağ” şikəstəsini...

**Səməd Vurğun,**
*Xalq şairi*

**Oxu, Bülbül!**

Oxu Bülbül!
Oxu Bülbül!
Çənlibeldən gəlsin səsin,
Oxu  Bülbül
Uzaq, yaxın
Neçə eldən gəlsin səsin!
Oxu Bülbül!
Bu səs deyil,
Bir əfsundur...
Bu səsə dünya məftundur.
Oxu! Bu bülbül cəh-cəhi
Qarabağdan gələn səsdir
Könlümüzü şeirə, sözə

Qanadlandıran həvəsdir.
Bu Koroğlu zənguləsi,
Qəhrəmanlıq nərəsidir.

**Bülbül**

Bülbül, fəğan etmə bu gecəyarı,
Şirin yuxudadır hələ nazlı gül.
Könüldə məhəbbət oyanmamışsa,
Fəğanla oyatmaq olarmı Bülbül?...

**Nigar Rəfibəyli,**
*Xalq şairəsi*

Görkəmli sənətkarlardan Hüseyn Arif, Ələkbər Ziyatay, Qasım Qasımzadə, Əli Kərim, Məmməd Araz, Tofiq Mütəllibov, Famil Mehdi, Sərdar Əsədi, Tofiq Bayram, İlyas Tapdıq, Həmid Abbas, kimi şairlərin Bülbülə həsr etdiyi digər şeirləri "*Nağıl evi"* nəşriyyatının 2004-cü ildə çapdan çıxan *"Bizim Bülbül – dünyanın Bülbülü"* adlı kitabında verilmişdir. Şeir müsabiqəsində bu şeirlərindən də istifadə edə bilərik.

## Kitab müzakirəsi

Bülbülün 120 illik yubileyi münasibətilə kitab müzakirəsinin keçirilməsi də məqsədəuyğundur.

Tədbirdə vokalist Bülbülə həsr edilmiş "Bizim Bülbül – Dünyanın Bülbülü" adlı kitabın müzakirəsi keçirilir. Kitabxanaçı girişdə Bülbülün yaradıcılığından danışır. Və kitab haqqında məlumat verir:

Bu kitab dahi müğənnimiz Bülbülün xatirəsinə "Nağıl evi" nəşriyyatının töhfəsidir. Kitabı hazırlayan və redaktoru Nahid Hacızadədir. Kitabda Bülbül haqqında tanınmış söz-sənət

adamlarının, görkəmli şəxsiyyətlərin məqalələri, xatirələri, fikirləri, eləcə də şairlərimizin böyük sənətkara həsr etdikləri şeirlər verilir. Kitabın müzakirəsi bitdikdən sonra uşaqlara kitab haqqında öyrəndiklərini yoxlamaq üçün sual-cavab hazırlayırıq. Aşağdakı sualları təqdim edə bilərik:

1) Bülbül kimdir?
2) O, harada anadan olub?
3) Bülbül hansı ölkədə musiqi təhsili alıb?
4) Hansı ramansların ilk ifaçısı olub?
5) Hansı operaların ifaçısı kimi tanınıb?
6) Bülbülün xatirəsi Bakıda necə əbədiləşdirilib?

Yubileylə bağlı Bülbülün ev muzeyinə ekskursiya təşkil edə bilərik. İlk növbədə hər hansı bir məktəblə danışırıq. Sinif rəhbəri ilə birgə şagirdləri təyin edilmiş gün muzeyə ekskursiyaya aparırıq. Ekskursiya zamanı Bizim Bülbül – dünyanın Bülbülü: məqalələr, xatirələr, şeirlər. - Bakı: Nağıl evi, 2004. - 530 s. Bülbülün xatirə muzeyi: Bələdçi – kitab = Мемориальный музей Бюль – Бюля: Краткий путеводитель = Bulbul`s memorial museum: Gide – book. - Bakı: Gənclik, 2006. - 60 s. bələdçi kitabdan istifadə edə bilərik. Bələdçi xalq artisti, professor Bülbülün memorial muzeyi haqqında 3 dildə – Azərbaycan, rus və ingilis dillərində söhbət açır. Müğənni və artist, ictimai xadim, pedaqoq və musiqişünas-alim Bülbül musiqi sənətimizdə hər bir mütərəqqi yeniliyin yorulmaz, fədakar təşəbbüsçüsü, alovlu təbliğatçısı olmuşdur. Muzeydə Bülbülün yaradıcılığını, elmi-tədqiqat, pedaqoji və ictimai fəaliyyətini əks etdirən 9000-ə yaxın sənəd toplanmışdır. Ekskursiyadan sonra uşaqların təəssüratlarını bölüşmək üçün anket sorğularından istifadə edə bilərik. Sorğular sinif rəhbəri vasitəsi ilə uşaqlara paylanır.

Uşaqlar tərəfindən doldurulduqdan sonra kitabxanaçıya qaytarılır. Anket sorğusunu təqdim edirik.

☺ Bülbül kimdir?

Bəstəkar

**Vokalist, xanəndə**

Müğənni

☺ Bülbülün Memorial Muzeyi neçənci ildə açılıb?

1984

**1982**

1981

☺ Bülbülün muzeyi Bakıda kimin təşəbbüsü ilə açılıb?

**Ümummilli lider Heydər Əliyev**

Prezident İlham Əliyevin

Oğlu Polad Bülbüloğlunun

☺ Bakıda açılan muzey əvvəllər ev muzeyi kimi harada olub?

Gəncədə

Tiflisdə

**Şuşada**

☺ Uzun illər bu muzeyin direktoru kim olub?

**Həyat yoldaşı Adilə xanım**

Oğlu Polad Bülbüloğlu

Oğlu Çingiz

☺ Muzeydə Bülbülə aid hansı əşyalarla tanış oldunuz?

____________________________________________

☺ Muzeyi gəzərkən yadda qalan xatirələrdən nə oldu?

______________________________________________

Həftə ərzində kiçikyaşlı uşaqlarla Bülbülün xatirəsinə həsr edilmiş şeirlərin ucadan oxusunu da keçirə bilərik. Rafiq Yusifoğlunun yazdığı "Qaçqın heykəllər" şeiri daha məqsədəuyğun olardı. Oxucular səhnəyə dəvət olunmazdan qabaq aparıcı iştirakçılara Şuşa haqqında danışır. Daha sonra vətənpərvərlik mahnısı sədaları altında oxucular səhnəyə yaxınlaşır:

**Qaçqın Heykəllər**

**I Oxucu**
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Gözləriniz önündə
Şuşa qəltan oldu qanına.
Tanklar qarışqa kimi daraşdı
Onun şirin canına.
Siz tarixin ucalığında susanda,
Güllələr alçaqların əllərində
dilləndi.

**II Oxucu:**
Evləriniz od tutub yandı,
Hayı alov-alov
Üfüqlərə çiləndi...
Gözləriniz önündə
İldırımlar sayrışdı...

**III Oxucu:**
...Sizə işgəncə versələr də,
Dindirə bilmədilər.
Uçurdular postamentinizi,
Ancaq özünüzün
Tarixin ucalığından...

endirə bilmədilər...

**IV Oxucu:** Millətin yaralı ürəyini
Odlara yaxdınız.
Zülmlər görə-görə
Siz də gəlib
Bakıya çıxdınız.
...Qanınız yerdə qalmayacaq,
İgidlər silaha qurşanıb.

**V Oxucu:** ...Gəlin gözlərinizdən öpək,
Sonuncu siz görmüsünüz Şuşanı.
Həmyerlilələrinizi görəndə
Gözləriniz dolmadımı?!
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Heykəl Vaqifdən
Xəbəriniz varmı?!

**Ədəbi-bədii gecə:**

Tədbir keçirilən zal qurulur. Bülbülün şəkli və Çingiz Əlioğlunun misraları zalda proyektorda nümayiş edilir. Həmçinin tədbirə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagird və tələbələri də dəvət edilir.

Bəslərdi könlündə, həssas qəlbində
Neçə xoş arzunu, diləyi Bülbül.
Ötərdi xalqının toy-düyünündə
Yurdunun oxuyan ürəyi Bülbül.

*Səhnəyə aparıcılar daxil olur.*

**I Aparıcı:** Salam əziz qonaqlar, əziz uşaqlar. Bu gün Azərbaycanın vokal sənətinin banisi Bülbül kimi tanıdığımız –

Murtuza Məşədi oğlunun 120 illik yubileyini qeyd etmək üçün sizinlə görüşmüşük. O, bizlər üçün gözəl musiqi əsərlərini ifasında qoyub getmişdir.

**II Aparıcı:** Musiqi beşiyi sayılan Şuşada doğulan Bülbül dünya Avropa musiqisinin məskəni sayılan İtaliyada təhsil alsa da Azərbaycan vokal musiqisini dünya səviyyəsinə gətirib çatdıran xanəndələrdəndir. O, Azərbaycan bəstəkarlarının kamera – vokal əsərlərinin populyarlaşmasında müstəsna xidmətlər göstərmişdir.

**I Aparıcı:** Bülbülün doğulduğu Şuşa şəhəri Azərbaycanın bir çox tanınmış şair və musiqiçilərinin, Şərq üslubunda avazı və özünəməxsus oxuma tərzi ilə muğam tariximizdə iz qoyan məşhur xanəndələrin beşiyi olub. Bülbülün atası Məşədi Rzanın da çox ürəyəyatımlı səsi olub. Məhz belə bir mühitdə böyüyüb 8 yaşına çatan Bülbüldə öz təkrarsız səsi ilə artıq xanəndə kimi tanınıb.

**II Aparıcı:** "İlk" sözü Bülbülün bütün yaradıcılığından qırmızı xətlə keçir. I Ümumittifaq vokalçıların Moskvada keçirilən müsabiqəsinin ilk azərbaycanlı laureatı Bülbül olub. O, bütün müsəlman aləmindən İtaliyada təhsil almağa gedən ilk azərbaycanlı tələbədir. Bülbülün müasirləri olan rus vokal incəsənətinin tanınmış nümayəndələri Sobinov və Kozlovskinin Fiqner, Şalyapin kimi sələfləri olduğu halda, onun klassik opera ənənələri əsasında azərbaycanlı sələfləri olmayıb. O, Azərbaycan vokal sənətində heç kimin getmədiyi naməlum bir yolda yeni cığır açmışdır. O cığırla bu gün Azərbaycanın bütöv vokalçılar ordusu irəliləyir.

**I Aparıcı:** Asəf Zeynallının *"Ölkəm",* Üzeyir Hacıbəyovun *"Sənsiz"*, *"Sevgili canan"* romanslarını eşitmisinizmi?

**Uşaqlar**: Bəli.

**II Aparıcı**: Bülbül bu romansların da ilk ifaçısıdır.

(Romanslardan biri səslənir.)

**I Aparıcı:** Zaldakı rəsmlərə baxırsınızmı?
Azərbaycan muğamlarımızdan hansılarını deyə bilərsiniz?
**Uşaqlar:** Rast, Şur, Seygah, Çahargah
Bu rəsmlərdə uşaqlar Azərbaycan muğamları haqqında düşüncələrini təsvir ediblər.
**II Aparıcı:** Professional vokal sənətimizin banisi, böyük Azərbaycan müğənnisi, pedaqoq, ictimai xadim, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, professor Bülbül xanəndəlikdən opera müğənniliyinə, müəllimliyə qədər geniş yaradıcılıq yolu keçmişdir.
**I Aparıcı:** 1912-ci ildə Bülbülün həyatında görkəmli şair Abbas Səhhətlə tanışlığı önəmli rol oynayır. Abbas Səhhət Bülbülə savadını artırmaqda kömək edir, ədəbiyyat və incəsənətə daha dərindən bələd olmaqda ona istiqamət verir. Şair Bülbülə rus dilini öyrətməklə yanaşı, həm də özünün Puşkindən, Lermontovdan etdiyi tərcümələrini oxuyur, rus ədəbiyyatından Bülbülə mükəmməl bilgi verir.
**II Aparıcı:** Dili yaxşı öyrənən Bülbül Milli operalarımızla yanaşı, Qərbi Avropa və rus klassiklərinin də operalarında müvəffəqiyyətlə çıxış edir. İ.Bizenin "Karmen", C.Verdinin "Riqoletto", İ.Massnenin "Verter", C.Puççininin "Toska", N.A.Rimski-Korsakovun "May gecəsi", S.Raxmaninovun "Aleko", R.M.Qliyerin "Şahsənəm", Çileanın "Arlezianka" operalarında canlandırdığı obrazlar onun repertuarında geniş yer tuturdu. Gəlin Bülbülün ifa etdiyi bu operaların birindən parçaya tamaşa edək:

*Proyektorda Bülbülün ifa etdiyi bu operalardan biri səslənir.*

**I Aparıcı:** Xalq mahnılarımızı böyük ustalıqla ifa edən Bülbül “Süsən Sünbül”, “Qara gözlər”, “Segah təsnifləri”, “Çal oyna” sırasından olan mahnılara yeni nəfəs gətirir. Asəf Zeynallının

“Ölkəm”, Üzeyir Hacıbəyovun “Sənsiz”, romanslarının ilk ifaçısı Bülbül olur. Bir sözlə Bülbül Azərbaycan vokal müusiqi sənətində inqilab edən, Azərbaycanın musiqi sənətinin inkişafı naminə bütün ömrünü sərf edən bir şəxsiyyətdir. Bakıda vaxtilə özünün yaşadığı küçə bu gün Bülbül prospekti adlanır.
**II Aparıcı:** Bülbülün adına Orta İxtisas Musiqi Məktəbi fəaliyyət göstərir. Elə bu məktəbin yetirmələri bizim tədbirin iştirakçıları olmaqla yanaşı, öz ifaları ilə də çıxış edirlər.

*Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdlərinin çıxışı.*

**I Aparıcı:** Bülbül peşəkar xanəndə, musiqi folkloru tədqiqatçısı, Azərbaycan professional vokal məktəbinin banisidir. 1961-ci ildə böyük sənətkar sentyabr ayının 26-da Bakıda ürək tutmasından vəfat edir.
**II Aparıcı:** 1982-ci il iyunun 10-da Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Bülbülün Memorial Muzeyinin təntənəli açılışı olub. Bu gün muzeydə Bülbülün yaradıcılığını, elmi-tədqiqat, pedaqoji və ictimai fəaliyyətini əks etdirən sənədlər toplanıb.
**I Aparıcı:** Bu gün Azərbaycan musiqi tarixindən danışarkən Bülbülsüz danışmaq olmaz. Çünki Azərbaycanın vokal sənəti öz nadir, təkraredilməz korifeyini Bülbülün şəxsində tapmışdı.
*Tədbirin sonu Bülbülün ifasında Koroğlu operasından parçanın nümayişi ilə bitir.*

*Son*

## Ədəbiyyat siyahısı

Muğam ensiklopediyası [Elektron resurs]: Qarabağ xanəndələri / Heydər Əliyev Fondu; red.heyəti M. A. Əliyeva [et al.]; tərt.ed. A.Cahangirova [et al.]. - Bakı: Musiqi dünyası; [S. l.]: TUTU Design, 2008. - 4 el. opt. disk (CD-ROM): rəngli. - (Azərbaycan Xanəndələri). - CD 1.1, 1.2, 1.3, 1.4 (qutuda):

### Kitablarda

Hacızadə N. Bizim Bülbül – dünyanın bülbülü: müğənni Bülbül haqqında // Yada düşdü. - Bakı : Araz, 2008. - S. 9-15.

Rza X. Ustad Bülbül // Gəl, ey səhər. - Bakı : Nağıl evi, 2004. - S. 288-298. - Məqaləyə şairin "Möcüzə" adlı şeiri əlavə olunmuşdur.

Rza X. Musiqi – ruhun qanadları: Bülbül haqqında // Gəl, ey səhər. - Bakı : Nağıl evi, 2004. - S. 371-377.

Rza R. Bülbül // Seçilmiş əsərləri. 5 cilddə. - Bakı: Öndər, 2005. – C.5. - S. 205-208.

### Dövri mətbuatda

Abbaslı T. Könüllər fatehi Bülbül... : Təbiətdəkilər bağ-bağatlı, allı-güllü aləmlərçün oxuyur, o isə küll-aləmçün! // Mədəniyyət. - 2013. - 21 iyun. - № 44. - S. 7.

Abbaslı T. Milli könüllər Bülbülü: Xanəndə Bülbül (Murtuza Məmmədov) haqqında // Mədəniyyət. - 2012. - 22 iyun. - № 45. - S. 6.

Abbaslı T. Səs çeşməsi...: müğənni Bülbül haqqında // Mədəniyyət. - 2013. - 27 sentyabr. - № 69. - S. 11.

Abbaslı T. Şuşa – Bakı – Milan – Dünya...: Şuşa ailəsinin növbəti oğlu, Azərbaycan aləminin təkrarsız bülbülü – Bülbül! // Mədəniyyət. - 2012. - 26 sentyabr. - № 69. - S. 7.

Ağamoğlanova A. Unudulmayan səs: Bülbül - 115// Mədəniyyət. - 2012. - 21 dekabr. - № 93. - S. 12.

Atakan L. Bülbül Muzeyi – musiqi folkloru sahəsində əsas qaynaq kimi: Bülbül Azərbaycan musiqisində yeni dövrün başlanğıcı idi // Qobustan. - 2015. - № 4. - S. 61-63.

Azərbaycan musiqisinin Bülbülü: Bülbül - 115 // Azərbaycan Müəllimi. - 2012. - 22 iyun. - № 24. - S. 6.

Babayeva M. Bülbül Azərbaycan vokal sənətinin banisi // Mədəni Həyat. - 2013. - № 3. - S. 81-84.

Bakıda görkəmli opera müğənnisi Bülbülün abidəsi açılıb // Yeni Azərbaycan. - 2012. - 1 noyabr. - № 200. - S. 2.

Bülbülün 115 illiyinə həsr olunmuş müsabiqə // Mədəniyyət. - 2012. - 17 oktyabr. - № 75. - S. 6.

Cabbarova F. Unudulmayacaq səs : Murtuza Məmmədov // Mədəniyyət. - 2013. - 28 iyun. - № 46. - S. 10.

İsgəndərova N. Musiqi folklorunun qoruyucusu: opera müğənnisi, musiqi folkloru tədqiqatçısı, SSRİ xalq artisti Məmmədov Murtuza (Bülbül) haqqında // Mədəniyyət. - 2015. - 7 oktyabr. - № 77. - S. 12.

Məmmədova A. 23 ilin nağılı : [Bülbülün həyat yoldaşı Adilə Məmmədova ilə müsahibə / yazdı N.Bədəlov] // El. - 2012. - № 10. – S.4-15.

Nəzərov İ. Dahi Bülbülün ilham pərisi: Hələ Bülbül adına Orta İxtisas Musiqi Məktəbində təhsil aldığım zamanlardan Bülbül sənətinə, onun yaradıcılığına böyük heyranlıq duyardım. Müəllimlərimiz bizi tez-tez Bülbülün memorial muzeyinə aparır, muzeydə mühafizə olunan eksponatlarla tanış edərdi // Mədəniyyət. - 2017. - 23 avqust. - № 63/64. - S. 10.

**Opera səhnəsinin batmayan günəşi**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 40
Çapa imzalanmışdır: 09.10.2017
Tirajı:100
Pulsuz